# 2018-ci il, birinci rüb: Qəbələdə bütün sahələrdə uğurlu inkişaf var

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 6-cı səhifədə).

cağını vurğulamışdır.

Turizmin inkişaf etdirilməsi, ölkəyə turist axınının gücləndirilməsi ilə bağlı çox böyük layihələrin həyata keçirildiyini diqqətə çatdıran Prezident cənab İlham Əliyev bu il Qəbələ şəhərinə dəmir yolunun çəkiləcəyini bildirmişdir.

İclasdakı yekun nitqində cənab İlham Əliyev eləcə də sənaye məhəllərinin yaradılması prosesinin davam etdiriləcəyini, yeni yolların salınacağını, içməli su xətlərinin çəkiləcəyini, ölkədə hər bir bölgənin təbii resurslarına uyğun emal müəssisələrinin, konserv, şirə zavodlarının açılacağını vurğulamışdır.

Kənd təsərrüfatının inkişafı üçün mühüm addımların atılacağını deyən Prezident cənab İlham Əliyev strateji texniki bitkiçiliyin və bağçılığın, o cümlədən pambıqçılığın, baramaçılığın, fındıqçılığın, tütünçülüyün, çayçılığın, sitrus meyvəçiliyinin genişləndirilməsi ilə bağlı müsbət nəticələr əldə olunduğunu və bu sahələrə diqqətin daha da artırılacağını bildirmişdir.

Heyvandarlığın və xüsusilə aqrar sektorun əsas sahəsi olan əkinçiliyin inkişafı üçün yeni kənd təsərrüfatı texnikalarının alınması ilə bağlı əlavə tədbirlərin görüləcəyini söyləyən dövlət başçısı bu il ölkəyə ən azı 5 min texnika gətiriləcəyini, texnika parkımızın tam müasirləşdiriləcəyini, dünyanın ən aparıcı istehsalçılarının texniki imkanlarından istifadə ediləcəyini diqqətə çatdırmışdır.

Cənab İlham Əliyev iclasda bu il 3 "ASAN xidmət" mərkəzinin açılacağını və daha 5 mərkəzin tikintisinə başlanılacağını qeyd etmişdir.

Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması və Bakı-Tbilisi-Qars dəmiryolunun fəaliyyətə başlaması nəticəsində Azərbaycanın tranzit ölkəyə və nəqliyyat qovşağına çevriləcəyinə əminliyini bildirən dövlət başçısı bununla bağlı respublikamızın ərazisindən çox böyük yüklərin daşınacağını söyləmişdir.

Gələn ay müstəqilliyimizin 100 illiyinin qeyd ediləcəyini deyən Prezident cənab İlham Əliyev Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasını tarixi hadisə adlandırmış və Azərbaycanın indiki qədər heç vaxt güclü olmadığını diqqətə çatdırmışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2018-ci ilin birinci rübü ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2018-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**

# Əməyin mühafizəsi mühüm məsələdir

***Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü ilə Qəbələdə Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş regional seminar keçirilmişdir. Tədbirdə 16 rayonun təhsil işçiləri həmkarlar ittifaqı rayon komitələrinin sədrləri, müəllimlər iştirak etmişlər.***

Seminarı giriş sözü ilə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilat şöbəsinin müdiri Emil Rüstəmov açmışdır.

Mövzu ilə əlaqədar Respublika Komitəsinin baş texniki müfəttişi Rəhim Səlimov məruzə etmişdir.

O, bildirmişdir ki, Ümumdünya Əməyin Mühafizəsi Günü 1987-ci ildən başlayaraq dünyanın əksər ölkələrində qeyd olunur. Bu gün bütün sahələrdə, o cümlədən təhsil sahəsində də əməyin mühafizəsi mühüm məsələ sayılır. Natiq ümumtəhsil məktəblərində, uşaq bağçalarında və məkdəbdənkənar təhsil müəssisələrində əməyin mühafizəsi üçün lazım gələn tədbirlər barədə geniş məlumat vermişdir. Mövzu ilə əlaqədar təhsil işçiləri həmkarlar ittifaqı İsmayıllı, Oğuz, Şəki, rayon komitələrinin sədrləri çıxış etmişlər.





Qəbələ Rayon Təhsil şöbəsinin müdiri Arifə Bayramova rayonun təhsil müəssisələrində əməyin mühafizəsi sahəsində görülən işlər barədə seminar iştirakçılarına məlumat vermişdir.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev məsələnin aktuallığını qeyd etməklə tədbirin bizim rayonda keçirilməsinə görə təşkilatçılara təşəkkürünü bildirmişdir.

Arif Allahverdiyev qeyd etmişdir ki, əməyin təhlükəsizliyi və normal iş şəraitinin yaradılması üçün seminarda qaldırılan məsələlər Qəbələnin təhsil müəssisələrində tam həll olunmuşdur.

Əməyin mühafizəsi ilə əlaqədar keçirilən müsabiqədə qalib gəldiklərinə görə Bərdə, Oğuz, Şəki, Şamaxı, Zərdab, Qəbələ rayon komitələrinin sədrləri Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri Fərmanı ilə təltif olunmuşlar.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN MAY AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Çuxur Qəbələ kəndi | 01.05.2018 | Kənd məktəbi, saat 11[00] |
| Hacıalılı kəndi | 08.05.2018 | Kənd yaradıcılıq evi, saat 11[00] |
| Kiçik Əmili kəndi | 15.05.2018 | Kənd məktəbi, saat 15[00] |
| Kürd kəndi | 22.05.2018 | Kənd məktəbi, saat 15[00] |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qazistismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.

# 42200 nəfər tibbi müayinədən yararlanıb

Azərbaycan Prezidentinin tövsiyəsinə uyğun olaraq, ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da əhalinin kütləvi tibbi müayinədən keçirilməsi uğurla davam edir.

Mərkəzi xəstəxanadan müxbirimizə bildiriblər ki, rayonda əhalinin kütləvi müayinəsi üçün hər cür şərait yaradılıb. Belə ki, sakinlər yaradılan xüsusi həkim briqadaları tərəfindən müayinə olunur, ehtiyac olduqda fuloqrafiya, kardioqram, ultrasəs, rentgen, laborator və sair müayinələrdən keçirilir. Fevralın 10-dan indiyədək 42 min 200 nəfər müayinədən yararlanıb. Xəstəlik aşkar edilən 2 min 645 nəfər ambulator, 249 nəfər stasionar müalicəyə cəlb edilib, 77 nəfər üzərində cərrahiyə əməliyyatı aparılıb, 151 xəstə isə Bakı şəhərinə ixtisaslaşdırılmış xəstəxanalara göndərilib.

**"Qəbələ"**

# Dünyanın diqqəti yenidən Bakıdadır

Sürət həvəskarlarının diqqəti yenə Bakıya yönəlir. Aprelin 27-29-da Azərbaycanda sayca üçüncü dəfə dünyanın ən mötəbər idman yarışlarından biri - "Formula-1" Azərbaycan Qran-prisi keçiriləcək. İndiyə qədər Bakıda iki dəfə təşkil edilən bu yarışın əvəzsiz təəssüratlarına əsasən deyə bilərik ki, yenə də sürət azarkeşləri Azərbaycan Qran-prisindən xüsusi zövq alacaqlar. Onlar adrenalin dolu saatlarla, unudulmaz anlarla zəngin olan günləri səbirsizliklə gözləyirlər.

